

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 20-21 (7257-7258) Çərşənbə axşamı, 17 mart 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik


# Azərbaycanla Pakistan arasında strateji tərəfdaşlıq dostluq və əməkdaşlıq prinsipləri genişlənir



Mətbuatın xəbər verdiyi kimi bu günlərdə Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn və xanımı Bequm Sahibanı Azərbaycanda rəsmi səfərdə olmuşlar. Ali qonaq və nümayəndə heyəti yüksək səviyyəli qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək görüş keçirmişdir.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq, dostluq və əməkdaşlıq prinsipləri əsasında siyasi, iqtisadi, hümanitar və digər sahələrdə uğurlu inkişafdan məmnunluq ifadə olundu. Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirmişdir. Eyni zamanda ölkələrimiz arasında müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu da qeyd edilmişdir.

Söhbət zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi də aparılmışdır.

Prezidentlərin təkbətək görüşündən sonra geniş tərkibdə görüşü olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görüşdə çıxış edərək Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyni Azərbaycanda bir daha salamlamış və ikitərəfi əlaqələrin gücləndirilməsi baxımından bu görüşün mühüm əhəmiyyət kəsb edəcəyini söyləmiş, həmçinin iki müsəlman ölkəsinin arasındakı qardaşlıq əlaqələrinin və əməkdaşlığın yaxşı nümunə olduğunu bildirmişdir.

Cənab Prezident çıxışına davam edərək demişdir: «Bu gün ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsini təmin edəcək mühüm sənədlər imzalanacaq. Bizim aramızda çox yüksək səviyyəli əməkdaşlıq mövcuddur. Bu əməkdaşlığın əsasını xalqlarımız arasında qardaşlıq təşkil edir. Sizin səfəriniz siyasi, iqtisadi, mədəniyyət, elm, texnologiya, müdafiə sənayesi sahələrində tərəfdaşlığımızın gücləndirilməsində mühüm addım olacaqdır. Cənab Prezident çıxışının sonunda müvafiq hökumət rəsmilərinin də bir-biri ilə danışıqlar aparmağa və birgə gələcək fəaliyyəti planlaşdırmağa vaxtları olacağını nəzərə çatdırmışdır.

Pakistan Prezidenti görüş zamanı cavab nitqində Azərbaycanda yüksək səviyyəli qarşılanmasından məmnun qaldığını bildirmiş, İlham Əliyevə xüsusi təşəkkürünü çatdırmışdır. Eyni zamanda cənab Prezident bir sıra beynəlxalq məsələlərdə Azərbaycanın Pakistanla apardığı tərəfdaşlığa görə razı qaldığını söyləmiş, Pakistanın da Dağlıq Qarabağ məsələsində Azərbaycanı dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini, Xocalı qətlamını pislədiyini bildirmişdir. Məmnun Hüseyn çıxışının sonunda cənab Prezident İlham Əliyevi əmin etmişdir ki, Pakistan dövləti Azərbaycanın hər bir çətin və ya yaxşı anlarında onunla birlikdədir. Dövlətlərimiz hər bir sahədə olan gözəl imkanlardan istifadə edərək bir-birinə kömək göstərməklə daha da güclü olmalıdır.



Azərbaycan—Pakistan sənədlərinin imzalanması mərasimindən sonra hər iki ölkə başçısı mətbuata birgə bəyanatla çıxış etmişdir (çıxışlar mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur). Daha sonra Pakistan İslam Respublikasının Prezildenti Məmnun Hüseyn tərəfindən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya ölkəsinin ali dövlət mükafatı olan «Hilal-e-Pakistan» ordenini təqdim etmişdir. Təltif haqqında qərarda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Heydər Əliyev Fondunun köməyi ilə 2005-ci ilin oktyabrında Pakistanda zəlzələ baş verdikdən sonra burada dağılmış qızlar məktəbinin tam şəkildə yenidən qurulmasında, təchiz edilməsində, davamiyyəti ilə seçilmiş tələbələrə təqaüdlər verilməsində, B peyvəndinin İslamabadda Edhi və KPK kimsəsiz evlərinə çatdırılmasında, 40 min nəfərə yaxın şəxsə həmin peyvəndin vurulmasında, Həmzə fonduna təcili tibbi maşının və 2000 qan paketinin çatdırılmasında, Pişəvəridə Xayber Göz Fondu klinikasının yeni blokunun tikintisinə maliyyə yardımının ayrılmasında, Azərbaycanın 12 nüfüzlü universitetində 36 pakistanlı tələbə üçün təqaüd ayrılmasında göstərdiyi qayğılar xüsusi olaraq qeyd olunmuşdur. Mehriban Əliyeva ordenin təqdimat mərasimində çıxış edərək onun Pakistanın ali dövlət mükafatına layiq görülməsi münasibətilə Prezident Məmnun Hüseynə dərin minnətdarlığını bildirmişdir.

Səfər çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Pakistanan birinci xanımı Bequm Sahibanı ilə görüş keçirmişdir.

Səfərin ikinci günü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn Bakıda keçirilən biznes-forumda iştirak etmişlər. Azərbaycanın və Pakistanın işgüzar dairələrinin iştirak etdiyi biznes-forumda prezidentlər geniş nitq söyləmişlər. Biznes-forum işini təqdimatlarla davam etdirmiş iş adamlarının ikitərəfli görüşləri keçirilmişdir. Görüşlərdə kənd təsərrüfatı, sənaye, toxuculuq, səhiyyə və əczaçılıq, kimya sənayesi, ticarət, tikinti materialları, idman malları və məişət texnikası istehsalı, qida və mədənçıxarma sənayesi, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, yeni əlaqələrin qurulması məsələləri müzakirə olunmuşdur.

Pakistan Prezidenti ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmiş, abidələr önünə əklil qoymuşdur.

Səfərin ikinci günü Pakistan Prezidenti və xanımı İçərişəhərlə, dənizkənarı Milli Parkla, Milli Azərbaycan tarixi Muzeyi ilə tanış olmuşlar.

Tanışlıq qonaqlarda zəngin təəssüratlar yaratmışdır.

Ümumiyyətlə, hər iki ölkənin dostluğu tarixi və mədəni köklərlə bağlıdır. Bu dostluq, əməkdaşlıq strateji tərəfdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

**Nadir ATAKİŞİYEV.**